SEMESTR İMTAHANLARINA HAZIRLIQ

E.M.Qocayev, A.Ə.Əhməd,
Ş.M.Əfəndiyev, N.Y.Səfərov

# FİZİKA

## TESTLƏR TOPLUSU
## I HİSSƏ

**BAKALAVRLAR ÜÇÜN VƏSAİT**

**Əsas anlayışlar, düsturlar və qanunlar**

**Məsələ həlli nümunələri**

**vablı testlər**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 14.12.2010-cu il 1632 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq olunmuşdur.

BAKI-2013

**Elmi redaktor:** **A.Ə.Abbasov,** Azərbaycan Texniki Universitetinin dosenti.

**Rəyçilər:** **A.H.Kazım-zadə,** Bakı Dövlət Universitetinin professoru, Əməkdar Elm xadimi;
**H.S.Orucov,** Azərbaycan Texniki Universitetinin professoru;
**Y.Q.Nurullayev,** Bakı Dövlət Universitetinin professoru.

**A.Ə.Əhməd, E.M.Qocayev, Ş.M.Əfəndiyev. Fizika.** Testlər toplusu, I hissə. Bakı, NPM «Təhsil», 2013, səh.304.

Testlər toplusu Ali Texniki Məktəblərin ümumi fizika kursunun proqrammı əsasında tərtib edilmişdir. Hər paraqrafda əvvəlcə nəzəri məlumatlar – əsas anlayışlar, düsturlar və qanunlar verilmiş, sonra mövzu üzrə izahlı həlli ilə test nümunələri təqdim edilmişdir. Bundan sonra isə müstəqil həll üçün testlər verilmişdir.

Testlər toplusu Ali Texniki Məktəblərin bakalavr pilləsində oxuyan tələbələr üçün nəzərdə tutulsa da, ondan müəllimlər, habelə Texniki Məktəblərə qəbula hazırlaşan abituriyentlər də istifadə edə bilərlər.

$$A\frac{1604000000}{122-021}-2013$$

© «Təhsil» NPM, 2013.

# ÖN SÖZ

Məlumdur ki, artıq 18 ildir respublikamızda biliyin qiymətləndirilməsi, daha dəqiq desək, ali məktəblərə qəbul test üsulu ilə həyata keçirilir və bu sahədə xeyli ürəkaçan müvəffəqiyyətlər əldə edilmişdir. 2008-2009-cu tədris ilindən başlayaraq Azərbaycan Texniki Universitetində semestr imtahanları da test üsulu ilə aparılmağa başlanmışdır. Bu sahədə hələlik müəyyən çatışmazlıqlar olsa da, üsul özünün müsbət nəticələrini göstərməkdədir. Bu vəsait mövcud qüsurları aradan qaldırmaq və semestr imtahanlarına hazırlaşan tələbələrə kömək məqsədi ilə tərtib edilmişdir.

Tədqim olunan testlər toplusu Ali Texniki Universitetlərin bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Testlər toplusu bu universitetlərin ümumi fizika kursu proqramı əsasında yazılmışdır. Vəsaitdə verilən sual və məsələlər ümumi fizikadan I semestrdə keçilən materialı əhatə edir. Hər paraqrafda əvvəlcə nəzəri məlumatlar – əsas anlayışlar, düsturlar və qanunlar verilmişdir. Sonra mövzu üzrə izahlı həlli ilə test nümunələri təqdim edilmişdir. Bundan sonra, müstəqil həll üçün cavablı testlər verilmişdir. Verilən testlər nəzəri, qrafiki, keyfiyyət, hesablama xarakterli olmaqla proqramı tam əhatə edir. Mövzuların ardıcıllığı proqramın quruluşuna və tədris olunma sırasına müvafiqdir. Tələbələr hər bir bölmənin nəzəri hissəsini öyrəndikdən sonra verilən testlərdən istifadə edərək biliklərini yoxlaya biləcəklər.

Nəzəri biliklərin yoxlanması və imtahanlara hazırlıq üçün nəzərdə tutulan bu vəsaitin tələbələrə faydalı olacağına inanırıq.

Müəlliflər əlyazmanı oxuyub dəyərli məsləhətlər vermiş AzTU-nun «Fizika» kafedrasının dosentləri A.Ə.Abbasova və S.A.Əliyevə dərin minnətdarlığını bildirirlər. Hər yeni nəşrində təkmilləşdiriləcək olan bu vəsait haqqında məsləhət və təkliflərini bildirən oxuculara əvvəlcədən təşəkkür edirik.